# "Qələbənin işığında"




Noyabrın 5-də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində tarixi Zəfərimizin 5 illiyinə həsr olunmuş "Qələbənin işığında" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət nümayəndələri, şəhid ailələrinin üzvləri, eləcə də müharibə ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxslər iştirak ediblər.

Əvvəlcə Dövlət himni səsləndirilib, ərazi bütövlüyümüz və suverenliyimiz naminə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Zəfər bayramının hər birimiz üçün ən əziz və qürurverici bayramlardan biri olduğunu deyən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, dövlət başçısının rəhbərliyi ilə müharibə əlilləri, şəhid ailələri veteranlarının sosial təminatı məqsədilə çox geniş proqramlar həyata keçirildiyini diqqətə çatdırıb. Nazir həmin proqramların ildən-ilə genişləndiyini qeyd edib: "Postmüharibə dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 132 min şəxsə 400 mindən çox xidmət göstərilib. Həmin kateqoriyadan olan şəxslər üçün nəzərdə tutulan müavinət və təqaüdlər orta hesabla 2 dəfədən çox artırılıb. Bu dövr ərzində şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan digər şəxslərə 6900-ə yaxın mənzil verilib. 11 min nəfərə sosial-psixoloji dəstək və reabilitasiya xidmətləri göstərilib. Həmin kateqoriyadan olan vətəndaşların məşğulluğu da daim diqqət mərkəzindədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olaraq, bu proqramları davam etdirəcəyik.

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi inkişafda olan mərkəzdir. Mərkəzdə həssas kateqoriyalardan olan şəxslərə, o cümlədən şəhid ailələri üzvləri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və övladlarına müxtəlif xidmətlər təqdim olunur. Bu qəbildən olan şəxslərin bilik və bacarıqlarının artırılması üzrə işlər aparılır. Hazırda mərkəzin 225-ə yaxın benefisiarı var. Mərkəz həssas qruplarla birgə öz fəaliyyətini davam etdirəcək".

Tədbir bədii hissə ilə davam etdirilib, şəhid övladlarının çəkdiyi fotolardan ibarət sərgi nümayiş olunub.

Azərbaycan.- 2025.- 7 noyabr (№ 238).- S.4.